Həsən Mehdiyev

Ovçu Səmənlərin hekayələri



Azərbaycan
Uşaq və Gənclər Ədəbiyyatı Nəşriyyatı
Bakı-1960



Ovçu Səməndərin hekayələri

Ovçu Səməndəri bizim tərəflərdə tanımayan yoxdur. Deyilənlərə görə, hələ indiyədək onun atdığı güllə boşa çıxmamışdır. Ömrünün əlli ildən çoxunu ovçuluqda keçirən alçaqboy, qırmızısaqqal bu qoca dağlar aşar, düzlər keçər, düzü-dünyanı ayaqlar, yoruldum deməz. O deyir ki, ovçunun hövsələsi gen olmalıdır. Bir adam ki, saatlarla, hətta günlərlə ovun pusqusunda oturub, ovu güdə bilmədi, ondan ovçu çıxmaz.

Səməndər baba çox söhbətcil adamdır. O, başına gələn hadisələri elə şirin danışır ki, deyirsən yeməyim, içməyim, səhərdən axşama kimi oturub ona qulaq asım.

<<Artıq tamah baş yarar>>

Bir axşam Səməndər baba bizə maraqlı bir hadisə danışdı.

– Cavan vaxtım idi. Yaşım iyirmi səkkiz-otuz aralarında olardı, – dedi,– Çayın o tayındakı dikin başında evləri olan axsaq İbad ilə yoldaşlıq edirdim. O da yaxşı vurardı. Özü də qorxu adında şey bilməzdi.

Günlərin birində Quylu dağ deyilən tərəfə ova çıxdıq. Bir az kənddən yuxarı qalxmışdıq, gördük, bir yalquzaq canavar yaldan aşıb tənbəl-tənbəl bizə tərəf gəlir. Tez-tələsik özümüzü daşın dibinə verdik. Yalquzaq lap yaxınlaşdı. Nişan ayağına çatanda, gördüm, İbad qoşalüləni qaldırdı döşünə.

– İbad, əl saxla, – deyə pıçıldadım. – Mənə elə gəlir ki, yalquzaq boğazdı. Görürsənmi, qarnı nə yekədir. Güdüb mağarasını öyrənək, küçükləyəndən sonra balalarını götürək. Özünü vurmaq asan işdir.

İbad tüfəngi endirdi. Ancaq yalquzaq hənirtimizi duymuşdu. Özünü bir kolun dalına verib çömbəldi. O çömbələn, bu çömbələn, toran düşənədək yerindən tərpənmədi. Toran düşəndə koldan çıxıb yavaş-yavaş gəldiyi yolla qalxdı yalın başına. Yalquzaq yalı aşan kimi, dedim ki, İbad tərpən, ancaq sayıq ol ki, görsənməyəsən. Bu canavar elə hiyləgər heyvandır ki, bizi görsə, istəyirsən bir ay güd, mağarasına qayıtmayacaq. Xüsusilə balalı canavar ölər, mağarasının yerini bildirməz.

Biz daşdan-daşa, koldan-kola əyilə-əyilə qalxdıq yalın başına. Canavar bir tikə yağlı əppək olub yoxa çıxdı.



– Yox, o bizdən zirək tərpəndi. Uduzduq,– dedim.

– Bütün günümüz hədər getdi. Tütün kisəni bəri ver görüm, bir papiros eşim, – deyə İbad qalxıb oturdu. Bir papiros da mən yandırdım. Elə bir qüllab vurmuşdum ki, gördüm biz gizlənən daşların dibində bir cüt göz yanıb söndü.

– Ay kafir, biz onu güdürük, o, bizi. Görürsənmi, dərə aşağı enib, bir də hənirti gələn yerə qayıdıb. Bizi gördü. Daha quyruq ələ verməz, – dedim.

...Bu hadisədən on beş-iyirmi gün keçmişdi. Ovdan qayıdırdım.



Yüküm ağır idi. Acısu dərəsində özümü qayanın kölgəsinə verib oturmuşdum. Gördüm, həmin canavar dərənin o biri tayındakı mağaradan çıxdı. Ancaq qarnı-qarnından keçmişdi. Bildim ki, canavar küçüklüyüb. Bir fikirləşdim, girib mağaradan küçüklərini götürüm. Fikrimi dəyişdim – qayıdıb məni mağarada görər, nəticəsi pis olar.

Evə gələn kimi İbadı çağırıb, əhvalatı danışdım.

— Sabahda-birigündə gedək. Birimiz oturub bayırda canavarı güdərik, birimiz də girib balalarını götürərik,– dedim.

Bu söhbətdən bir günmü, yaxud iki günmü keçmişdi. Artırmada oturub patrondaşın boş gilizlərini doldururdum. Gördüm kəndə hay düşdü ki, İbadı Acısu dərəsində canavar dağıdıb. Tökülüb getdik Acısu dərəsinə. İbad huşunu itirib mağaranın



ağzında qalmışdı. Canavarın da qoltuğunun altından iki güllə dəyib dağıtmışdı.

Səməndər baba söhbətini bitirmək istədi. Ancaq gördü ki, yerimizdən tərpənmirik, əlavə etdi:

– Eşitdiyimə görə, İbada deyirlər ki, körpə canavar küçüyü heyvanxanada yaxşı pula gedir. O da fikirləşir ki, elə Səməndərsiz götürüb küçükləri satım. Durub gedir dediyim yerə. Mağaranı tapır. Bir az aralı gizlənib canavarı güdür ki, vurub öldürsün, girib balalarını yığışdırsın. Çox gözləyir, canavar görünmür. Deyir, canavar yəqin mağaradadır. Fikirləşir ki, girib elə mağarada vurum. Sən demə, canavar da İbadı görüb, kənarda gizlənibmiş. İbad mağaraya girmək istəyəndə arxadan cumub onu parçalayır. İbadın bəxti onda kəsir ki, mağaranın ağzında yaxalaşırlar, özünü bayıra ata bilir.

Ancaq artıq tamahlıq ona yaman baha tamam oldu. Görürsünüzmü, indi də hər iki qılçasından axsayır.

Namərd

Heç yadımdan çıxmaz. Bir axşam məktəbdən qayıdırdım. Evə bir az qalmış gördüm, Səməndər babagilin həyətinə xeyli adam toplaşıb. Ürəyim elə bil qopub düşdü. Məni soyuq tər basdı. Tez özümü yetirdim evə. İçəri adamla dolu idi. Səməndər babanın baş-gözünü bağlayıb salmışdılar yorğan-döşəyə. Üst-başı tamam qan içindəydi. Hərdənbir zarıyıb su istəyirdi. Bu yatan, Səməndər baba düz üç gün, üç gecə üzüquylu qaldı. Dördüncü günü gözlərini açdı. Yemək istədi, verdilər. Üstündən bir stəkan çay da içdi.

– Yox, deyəsən, ölmədim, kəfəni yırtdım,– deyə ətrafındakı adamlara göz gəzdirdi.

– A kişi, əlli ildir ovçuluq edirsən, bilmirsən ki, adam başını bəbirin ağzına verəndə nə günə qoyar? – deyə Səməndər babanın arvadı Gövhər xala dilləndi.



– Bilirəm, Gövhər, bilirəm,— deyə Səməndər baba aradan xeyli keçəndən sonra qırıq-qırıq danışmağa başladı:

– Əlimə tüfəng alıb, adımı ovçu qoyandan bəri başımın tükü sanınca vəhşi heyvan vurmuşam, mağaralara girib canavar balası götürmüşəm, neçə kərəm ayı ilə əlbəyaxa olmuşam, belə şey görməmişəm, – dedi. Eşitmişdim ki, keçmişdə bizim tərəflərdə bəbir olub, ancaq rastıma çıxmamışdı.

O, bir az dayanıb, hadisəni yadına salırmış kimi fikirləşdikdən sonra söhbətinə davam etdi:

– Eşitdim ki, guya Salvartı yaylağından aşağıdakı dərədə ayı görüblər. Çarığımı-patavamı bərkidib qalxdım Salvartıya. İki gün hərləndim, bir şey görmədim. Endim Çilli yurda tərəf. Gördüm, Sarıgüney kəndinin çobanı Məmov qoyunu yayıb göllərdən bəridəki döşə, özü də qalxıb oturub dikin başında. Dedim bir az süd alım, çörəyimi doğruyub yeyim. Xülasə! Ağzıma birinci tikəni

qoymuşdum, ikinci tikəyə əl atanda qoyun hürküb töküldü göllərə tərəf. Məmov itlərə hay vurub cumdu sürünün dalınca.

Doğrusu, mənə elə gəldi ki, sürüyə canavar təpib, məhəl qoymadım. Məmov göllərə çatanda bir güllə açıldı. Güllə açılması ilə Məmovun haray salması bir oldu. «Ay haray, yetişin! Səməndər əmi, öldüm».

Tüfəngi qapıb, özümü atdım dərə aşağı. Özümü onda yetirdim ki, bir qəribə heyvan, dərisi pələng dərisi kimi zol-zol, kişini alıb altına dağıdır. Bildim ki, bəbir deyilən şey budur. Qaldım necə edim?! Güllə atım, Məmova dəyəcək...

Birdən yadıma düşdü ki, ay gidi, gərək cibimdə bıçağım olsun axı?!. Eşitmişdim ki, bəbirin gücü pələng kimi dal ayaqlarında olur. Odur ki, siyirlərini kəsdin, canını almısan... Tez bıçağı çıxarıb bir qılçasının siyirini kəsdim. Bəbir nərə çəkib yıxıldı. Ancaq qoçaq üstümə elə atıldı ki, qoymadı gözümü yumub açım, – «Məmov, o biri siyirini kəs! Adə, kəs siyirini,» – deyə çığırdım. Gördüm Məmov hardadır. Zalım oğlu zalım bəbirin ağzından qurtaran kimi aradan çıxıb, üz qoyub kəndə tərəf. Xülasə, bəbirlə nə qədər əlləşmişik, deyə bilmərəm. Yadımda o qalıb ki, o biri ayağını da keçirdim əlimə, bıçağı çəkdim siyirinə. Bəbirdən elə bir nərə qopdu ki, indi də səsi qulağımdan getmir. Sonrasını siz məndən yaxşı bilərsiniz. Evə necə gətirmisiniz, xəbərim yoxdur. Ancaq zalım oğlu zalım yaman namərdlik etdi. Səməndər baba indi də xallı bəbir dərisini öz otağının divarından, qoşalülə tüfəngi ilə yanyana asır.



Qaban ovu

Bir səhər artırmada dayanmışdım. Gördüm Səməndər baba hasarın o biri üzündən mənə əl edir. Sevindim. O, hər dəfə ovdan qayıdanda çağırıb mənə kəklikdən, turacdan bir şey verər. Qaçdım yanına.

– El meşəsindən aşağıkı qamışlığa tərəf gedirəm. İstəyirsən, səni də aparım, – dedi.

– İstəyirəm, Səməndər baba, istəyirəm,– dedim.

– Di onda yeri qıvraq geyin, tez çıx gedək,– dedi.

Sevindiyimdən əlim-ayağım yerə dəymirdi. Elə sevinirdim ki, bu uzun yolu necə gəldiyimizi bilmədim. Meşəni keçib çatdıq qamışlığa. Səməndər baba qamışlığı xeyli gəzəndən sonra qarşı tərəfdə hündür bir palıd ağacının altında ayaq saxladı.

– Hə, indi burda bir iş var, iki əməl. Ağaca çıxmaqla necəsən? Əlindən gələrmi?– dedi.

Dedim:

– Çıxa bilərəm, Səməndər baba. Yazda Mərövcə Məhəmmədgilin bağındakı qələmənin lap kəlləsində qəcələ[1] yuvası var idi. Uşaqlar nə qədər əlləşdilər, çıxa bilmədilər. Mən çıxıb qəcələnin yumurtalarını götürdüm.

– Onda bu ağacın başına bir dırmaş görüm. Ancaq səsin çıxmasın ha...– dedi.

Dırmaşdım ağaca. Səməndər baba da çıxdı ağacın haçasına. Bir müddət dinməz-söyləməz oturduq. Hövsələm lap tükəndi.

– Səməndər baba, bu ağacın başında nə ovlayacağıq? – deyə axırda yavaşca pıçıldadım.

– Mənə deyiblər ki, qamışlıqda dana boyda bir qaban var. Güdmək lazımdır, bu tərəflərə gəlsin, vuraq.

– Bəs ağaca çıxmaq nə üçündür? Qorxursan? Burda oturmaqla qaban gələr? Gedib axtaraq, tapaq da, – dedim.

Səməndər baba mənə baxıb gülümsədi.

– Oğlum, – dedi. – Qaban çox qorxulu heyvandır. Onunla ehtiyatlı olmaq lazımdır. O, bəzən adamın da üstünə cumur.

---

[1] Qəcələ – sağsağan

Bu vaxt bizdən azca aralı, meşədən bir şaqqıltı qopdu. Yerimdə elə səksəndim ki, az qala, ağacdan yıxılacaqdım. Səməndər baba şəhadət barmağının ucunu dodaqlarına qoyub səs salmamağıma işarə etdi. O, yerində dikəlib səs gələn tərəfə boylandı. Sonra budaqları o tərəf, bu tərəf edib, – bir ora bax,– deyə qulağıma pıçıldadı.

Qılçıqlı, yöndəmsiz bir ayı, donquldana- donquldana meşədən çıxıb kənardakı qollu-budaqlı iri palıd ağacının yanında dayandı.

Gövdənin aşağıdakı budaqlarından yapışa-yapışa bir neçə dəfə palıdın haçasına çıxıb yerə düşdü. Səməndər baba dinməz-söyləməz oturub ayının hərəkətlərinə tamaşa edirdi. Mən heç nə başa düşmürdüm. Öz-özümə fikirləşirdim ki, ayı öz ayağı ilə gəlib beş addımlığımızda dayanıb, görən, Səməndər baba niyə vurmur?!

Ayı, ağaca bir-iki dəfə çıxıb düşəndən sonra palıdı bələddəyib qamışlığın kənarı ilə əyilə-əyilə gedib bir çuxura girdi. Arabir qalxıb qamışlığa tərəf boylanır, yenə çəkilib otururdu. Hərdən də çuxurdan çıxıb qamışlığın içərisinə tərəf gedir, ancaq tez qayıdıb yanını basa-basa özünü çuxura salırdı. Bir azdan ayı çuxurdan çıxdı. Əyilə-əyilə qamışlığa girib gözdən itdi. Çox keçmədi ki, qamışlıqdan donuz potasının səsinə oxşar zil bir çığırtı eşidildi.



– Deyirəm axı bayaqdan bəri ayı nə oyunbazlıq edir, – deyə Səməndər baba dilləndi. – Sən demə, dostum qamışlıqda məkərçin potaları görübmüş.

– Məkərçin nədir, Səməndər baba, – dedim.

– Çöl donuzunun dişisinə məkərçin, erkəyinə isə qaban deyirlər. Ayının kələkləri qabana görədir, – dedi – Çünki, qabandan yaman qorxur.

Bu ara ayı qoltuğunda məkərçin potası qamışlıqdan çıxdı. O, yıxılıb qalxa-qalxa həmin palıd ağacına tərəf qaçırdı. Məkərçin çığıra- çığıra ayının arxasınca yüyürürdü.

Körpə potalar analarının dalısınca qaçışırdılar. Ayı ağacın haçasında yerini rahatlayandan sonra potanın bir qılçasını qabaq pəncəsinin altına qoydu. O birini alıb dal pəncəsi ilə dartıb parça-parça elədi, məkərçinə acıq verə-verə acgözlüklə potanın qanını yalamağa başladı. Məkərçin palıdın dörd dövrəsinə fırlanıb fəryad edirdi. Onun səsinə nərildəyə- nərildəyə qamışlıqdan iri bir qaban çıxdı. Ayı qabanı görən kimi bir az yuxarı qalxıb ağacın budaqları arasında gizləndi.

– Səməndər baba, bunları niyə vurmursan? Vur, – deyə astadan pıçıldadım.

– Tələsmə! hələ burada işlər olacaq, – deyə Səməndər baba dilləndi, – həm ayını, həm də qabanı ovlamaq lazımdır... Başıma qəribə bir fikir gəlib,– dedi.

Aradan az keçmiş qaban qabaqda, məkərçin ilə potaları da onun arxasınca yenə qamışlığa qayıtdılar. Ayı gözdən itən kimi Səməndər baba düşüb yüyürdü palıda tərəf. Ağacın alt budaqlarını baltalayıb yerə tökdü, cəld qayıdıb çıxdı ağaca.

– İndi gör nələr olacaq? – dedi.

Səməndər baba yerini hələ rahatlamamışdı ki, gördük ayı məkərçin potasının birini də oğurlayıb qaçır. Qaban nərildəyə-nərildəyə onun arxasınca cumurdu. Palıda çathaçatda qaban arxadan ayını haqladı. Ayı budaqların kəsildiyini görəndə özünü itirdi. Potanı atıb, palıda dırmaşmağa çalışdı. Ancaq, qaban qılınc kimi dişini arxadan ayının qarnının altından ilişdirib onu yerə sərdi.

Səməndər baba:

– Qorxmayasan ha,ovun vaxtıdır, – deyib qoşalüləsini döşünə sıxdı. Tüfəng iki dəfə guruldadı. Güllə açılan kimi qaban yıxılıb qalxdı. Oyan-buyana baxıb biz tərəfə üz verdi. Ağaca az qalmış Səməndər baba tüfəngi doldurub bir də nişan aldı. Qabanın ayaqları başından aşıb mayallaq vurdu. Qalxmaq istədi. Yenə yıxıldı.

Səməndər baba haçadan atdanıb düşdü.

– Gəl görək, gəl qabana yaxından bax, – dedi.

Güllələr çox sərrast atılmışdı. Qaban ayaqlarını yığıb-açırdı.



Qarpız oğrusu

Bir-iki il bundan əvvəl yığışıb məktəbimizin dörd tərəfinə meyvə tingləri əkdik. Birinci ilin yayında tingləri susuzluqdan yaxşı saxladıq. Yaxşı da böyüdülər. Sonrakı ili bir az su qıtlığı olduğundan tinglərə avqust ayında bir dəfə su verə bildik. Əslində özümüz də bir qədər başısoyuqluq etdik. Dedik ki, qorxusu birinci il idi. Daha o qədər su lazım deyil. Yaz açılanda gördük, ərik ağaclarının çoxu, şaftalının da hamısı quruyub puça çıxıb. Yalnız gilənarla tut ağacları salamat qalmışdı.

Bir gün müəllim bizi yığıb dedi:

– Uşaqlar, yeni əkilmiş tingi ərsəyə gətirmək, onu bəhərə çatdırmaq üçün yalnız hərdən dibinə su vermək kifayət deyil. Onların diblərinə peyin vermək, dövrəsini çəpərləmək lazımdır. Tingin ətrafı açıq olanda mal-qoyun ağız atır, başlarını qoparıb yaralayır, yerindən dəbərdir. Həm də tingin dibinin nəmliyini saxlamaq üçün ətrafını qazımaq lazımdır. Tingin dibi nə qədər tez-tez qazılıb yumşalarsa, onun nəmliyi də bir o qədər çox olar. Əkdiyiniz bu tinglər körpədir, onların rişəsi çox dərinə işləməyib. Odur ki, isti yay aylarında onlara bir-iki dəfə su verməklə onların suya olan tələbini ödəmək olmaz. Belədir. Ağac əkmək, onu bəhərə çatdırmaq asan iş deyil. Böyük zəhmət tələb olunur.

Müəllimin söhbətindən sonra çox götür-qoy etdik. Uşaqların hərəsi bir fikir irəli sürdü.

– Mənim bir təklifim var,– deyə uşaqlardan biri dilləndi. – Gəlin tinglərin diblərini bostan edək. Həm yer yumşalar, nəmliyi yaxşı saxlar, həm də bostana su verdikcə ağaclar da içər, yanmaz.

– Birini əkmişik, ağzımız bala çatıb, birini də əksək, lap bəxtəvər olacağıq, – deyə başqa birisi dilləndi.

– Bostan əkmək fikrinə mən də şərikəm, – dedim. – Belə etməsək, olub-qalan tingləri də bu il yandıracağıq. İstəsəniz, məktəbin xidmətçisi Əkbər əmini də bu işə cəlb edərik. Həm köməkliyi



dəyər, həm də göz olar, uşaq-muşaq yolmaz.

Həmin gün dərsdən sonra torpağı daşdan-kəsəkdən təmizlədik, sonra qazıyıb peyin verdik. Yerin yarısına pomidor, kələm, yarısına da qovun-qarpız əkdik. Bostanın suyunu vaxtında verdik, tağların diblərini boşaltdıq. Qovun-qarpız daşdı. Bostana baxırdın, elə bil qoyun-quzu yatışıb. Hər tağın üstündə iki-üç qarpız vardı. Əkbər əmi gecə-gündüz bostanın içərisindən çıxmırdı. Tinglərimiz də yaxşı böyüdülər. Elə çubuq verdilər ki, hər biri bir metr, metr yarım.

Bir gün maraqlı hadisə oldu... Yay tətilinə buraxılmışdıq. Uşaqların hərəsi bir yana getmişdi. Bostan qalmışdı Əkbər əminin umuduna. Bir səhər beli götürüb getdim bostana. Axırıncı suyundan on beş-iyirmi gün keçmişdi. Dedim, görüm bostan su istəyirsə, Əkbər əmiylə köməkləşib bir də suvaraq.

Suyu bostanın üstünə bağlayıb başladım gəzməyə. Hansı qarpıza əl atdım, gördüm torpağa tərəf hissəsi çürüyüb. Matım-



qutum qurudu. – «Bu necə işdi? Bəlkə, bir xəstəliyi var?» – deyə öz-özümə düşündüm. Əkbər əmini çağırdım.

– Ay Əkbər əmi, bu qarpızların hamısı çürüyüb ki! – dedim.

– Ay bala, elə şeyləri mən bilmərəm. Bostan işini yaxşı bilən bir adamdan soruş, gör nə deyir?!

Bostanı gəzir, çürümüş qarpızları dərib bir kənara yığırdım. Birdən ayağım tağa ilişib iri bir qarpızı yanı üstə çevirdim, gördüm ki, qarpızın alt tərəfində girdə deşik var. Deşik bıçaqla açılmışdı. Bostandakı qarpızların hamısını bir-bir qaldırıb yoxladım.

Nə qədər iri qarpız vardı, hamısının alt tərəfində yumurta boyda kəsik yeri vardı. İşi başa düşdüm. Kimsə qarpızın kalı ilə dəymişini seçə bilmədiyindən deşib içinə baxmışdı. – «Bunu kim etmiş olar?», – deyə öz-özümə fikirləşdim. – «Hər halda uşaq işidir».

İki gün səhərin gözü açılandan qaranlıq düşənə kimi bostanı güddüm...

– «Gərək bu oğrunu tapam», – deyə fikrimdən keçirdim.

Üçüncü günü gördüm, Əkbər əminin balaca oğlu ilə başqa bir qonşu uşağı gəlib dayandı bostanın kənarında. O tərəf, bu tərəfə baxıb girdilər bostana. Uşaqlardan biri qarpızları bir-bir qaldırır, o biri isə əlindəki kor tiyə ilə deşib içinə baxır, görür kaldır qoyur .

Özümü çardaqdan atdım.

– Ədə, nə edirsiniz, ay balaca qarpız oğruları, – dedim. Səsə-küyə Əkbər əmi də gəlib çıxdı.– Əkbər əmi, oğruları tapmışam, – dedim. – Gəl tanış ol!

Uşaqlar burnunun suyunu axıda-axıda başladılar ağlamağa.

– Niyə, biz qarpız oğurlamırıq ki, dəymiş qarpız axtarırıq,— deyə mızıldandılar.

Biz onlara baxıb xeyli güldük.

– Dəymiş qarpızı elə axtarmazlar, – dedim. Bostanı gəzib uşaqların hərəsinə bir qarpız tapıb verdim.

– Siz qarpızı məndən istəyin. Deşirsiniz, hamısı qalıb çürüyür, – dedim.

Uşaqlar bir daha bostanın həndəvərində görünmədilər. Ancaq hər dəfə qarpız yığdıqca paylarını göndərirdik.

Ördək yumurtaları

Qoşabulaq kəndi iki dərənin qovşağında yerləşir. Bunlardan biri kənddən yuxarıdakı xırdaca göllərdən başlayır. Bu dərənin suyu yay aylarında tamamilə quruyur, daşları qalır ağara-ağara. O biri Salvartı dərəsidir. Bu dərə Qırxbulaq çuxurundan başlayır. Biçənək çayının töküldüyü yerdən sonra buranın suyu o qədər çoxalır ki, necə deyərlər, o tay-bu tay olur. Dərənin güney üzü üzümlükdür. Qüzeyi isə kəndimizdən Salvartı yaylağının ayağınadək qalın meşəlikdir.

Kəndin ayağında, iki dərənin birləşdiyi yerdə bir cüt qoşa bulaq çıxır. Deyilənlərə görə, elə kəndimizin adı da buradan götürülmüşdür.

Əlbəttə, mən böyük şəhərlərdə olmamışam, çoxlu kənd görməmişəm. Ancaq, mənə elə gəlir ki, təbiət heç yerdə, heç kimə bizim kəndimiz kimi gözəl mənzərə, dövlətli torpaq bəxş etməyibdir. İlin hansı fəslində meşələrimizə, dağlarımıza çıxırsan-çıx, kəndə əliboş qayıtmazsan. Yaz aylarında dərələrimizdə baldırqan, çaşır, göbələk olur. Yamaclarda minbir rəngə çalan ətirli



çiçəklər bitir. Payızda meşələrimizdən kisə-kisə meyvə dərilir. Qışda çıxsan; ov vurarsan, quş tutarsan. Quş dedim, yadıma düşdü!

Bu ilin baharında qəribə bir əhvalat oldu. Bir səhər yerimdən yenicə qalxıb əl-üzümü yuyurdum. Gördüm sinif yoldaşlarımdan Qəşəm hasardan boylanıb, mənə əl edir. Əlimin sabununu ətəyimə silib hasarı aşdım.

– Gedirəm göbələk yığmağa. İstəyirsən, sən də gedək. Dünən naxırçı Pirişin qızları adama bir səbət yığmışdılar,– deyə Qəşəm xısın- xısın pıçıldadı.

– Gözlə, bu saat gəlirəm, – deyib qayıtdım evə. Çardağın haçasından asılmış səbəti götürdüm, pişik kimi sivişib evdən çıxdım. Bir azdan dərəni adlayıb, meşəyə tərəf qalxdıq. Yaz yağışı vurub o qədər göbələk çıxarmışdı ki, bilmirdik, hansını dərək. Çınqılli bulağa çatanda gün əyilmişdi. Səbətlərimizi bəsdi deyincə yığıb doldurmuşduq.

– Gəlsənə, hələ günün batmasına çox var, göllərə tərəf adlayaq, görək ördək yumurtasından-zaddan taparıqmı, – deyə Qəşəm dilləndi.

– Gedirsən, gedək,– dedim. – Ancaq indi Salvartı dərəsini o taya keçmək olar, çay qan-qan deyir?

– Niyə keçmək olmur?! Su bizi yeyəcək? Bəri gəl,– deyə Qəşəm düşdü qabağa.

Meşədən çıxıb, dərənin dibinə endik. Dağların qarı əriyib yağış suyuna qarışdığından çayın suyu daşıb dərə ilə bir olmuşdu. Çox gəzdik, sudan keçməyə ürək eləmədik. Birdən bizdən azca aralıdakı cillikdən bir ördək qalxdı. Qəşəm səbətini yerə qoyub cilliyə cumdu.

– Bura gəl! Gəl axtaraq, ördək uzağa uçmadı. Ya balaları var, ya yumurtası,– deyə məni də çağırdı.

Cilliyi əndər-döndər etdik, bir şey tapa bilmədik. Qayıtmaq istəyəndə, suyun lap qırağında baş-başa vermiş iki çapıq daşın altından bir yığın küləş gördüm.

–Tapdım, tapdım, – deyə cumdum daşa tərəf. Ördək daşların arasında özünə quru küləşdən isti bir yuva düzəltmişdi. Yuvanın içərisinə yumşaq otdan döşənəcək də salmışdı. Yuvada bir ətək yumurta var idi.

Qəşəm yumurtaları qamarlayıb yığdı papağının içinə.

– Gəl dalımca. Daha göllərə tərəf getməli olmadıq, – deyə qayıtdı səbətlərin yanına. Yanını yerə verib yumurtaları saydı. Başını qaşıya-qaşıya bir qədər fikirləşdi, sonra əllərini papağının içinə saldı, yumurtalardan götürüb ciblərinə yığdı. – Mən səndən böyüyəm, bu altısı mənim, qalanları da sənin,– deyə papağında qalan yumurtaları da mənə uzatdı. Sınmasın deyə yumurtaların ikisini bir cibimə, ikisini də o biri cibimə qoydum.



Səbətlərimizi götürüb kəndə qayıtdıq. Həyətə girər-girməz anam məni yaxaladı:

– Hardasan?! – dedi. – Yerindən qalxıb yoxa çıxmısan. Yenə yazın burnu açıldı, dağdan-daşdan yığışmayacaqsan? Sənin bu meşəyə getməyin məndə ürək qoymayıb.



Adamın başına min cürə fikir-xəyal gəlir. Tək-tənha meşəyə getmək olar? Qurd-quş bir dəqiqədə dağıdar, harayına da çatan olmaz.

Dinməz-söyləməz səbəti qapının kandarında yerə qoyub, keçdim evə. Oturanda əlim cibimdəki yumurtalara toxundu. Çıxarıb düzdüm xalçanın üstünə.

– Bunlar nə yumurtasıdır, bala, haradan tapmısan? – deyə anam soruşdu.

– Ördək yumurtasıdır. Çınqıllıdan, aşağı dərədən tapdıq,– dedim.

O, yumurtaları əlinə alıb o tərəf-bu tərəfinə fikir verdi. Sonra qapının ağzına yeriyib, ovcunu yumdu. Yumurtanın bir tərəfini işığa tərəf tutdu.

– Ay bala, yazıq quş kürt yatıbmış, yumurtaları nahaq götürmüsünüz,– dedi.– Görürsənmi, çirklidir, həm də al, bir işığa tərəf tut, içərisi qara görünür. Aparıb qoyun yerinə! Tez aparın, yumurtalar soyuyar, içərisindəki cücələr tələf olar.

Yumurtaları götürüb cumdum Qəşəmgilə. Əhvalatı danışdım.

– Yaxşı oldu, toyuğumuz üç-dörd gündür kürt yatıb. Verək, anam qoysun toyuğun altına,– deyə Qəşəm sevindi.

– Bu, mümkün olan iş deyil, Qəşəm! Anam deyir ki, yumurtanı toyuğun altına eyni vaxtda qoymaq lazımdır. Həm də toyuq ördək balasını saxlayıb böyüdə bilər? Onlar cumacaq suya, cücələr quruya.

Başqa əlacı yoxdur. Qalx ayağa! Yumurtaları aparıb qoyaq yerinə,– dedim.

Toran çalana çatdıq dərəyə. Çox gəzib yuvanı tapdıq. Yumurtaları qoyub, yuvanın yanındakı kola bir qırmızı cında parçası da bağladıq.

– Bununla yuvanı tez taparıq,– dedim.

Bundan sonra hər iki-üç gündən bir gedib yumurtaları yoxlayırdıq. Onu deyim ki, biz bir daha ördəyi yuvasından qalxan görmədik.

Yumurtalar da həmişə buz kimi soyuq olurdu.

Bir gün məsələni müəllimə danışdım. Müəllim dedi ki, quşlar təbiət etibarilə çox müxtəlifdirlər. Bəzi quşlar var ki, onların yuvalarının həndəvərinə adam ayağı dəyəndə, yuvalarına toxunanda yerlərini tərk edir, özünə yeni yurd seçir, yeni yuva tikirlər. Nahaq yerə yumurtalara əl vurmusunuz. Ördək bir daha o yuvaya qayıtmayacaq.

Biz ondan sonra bir daha yuvanın həndəvərinə hərlənmədik. Payızın əvvəllərində bir dəstə uşaqla meşəyə meyvə yığmağa getmişdik. Kəndə qayıdanda yolumuz Çınqıllı tərəfdən düşdü. Yuvanı axtarıb tapdım. Yumurtaları necə qoymuşduq, eləcə durdular. Kolun budağına bağlanmış qırmızı cında parçası da yerində idi.

KİTABIN İÇİNDƏKİLƏR

Ovçu Səməndərin hekayələri 2
“Artıq tamah baş yarar” 2
Namərd.....6
Qaban ovu 9
Qarpız oğrusu.....12
Ördək yumurtaları.....16